**UOT 78.03**
**https://doi.org/10.59849/2311-8482.2024.1.179**

**EMİN NAĞIYEV***

# AZƏRBAYCAN MİLLİ NƏFƏS ALƏTLƏRİNİN ANSAMBL VƏ ORKESTRLƏRDƏ YERİ VƏ ROLU

*Məqalə Azərbaycan milli nəfəs alətlərinin musiqi ifaçılığı təcrübəsində tətbiqi məsələlərinə həsr olunub. Məqalədə milli nəfəs alətlərinin müxtəlif tərkibli ansambl və orkestrlərdəki yeri və rolu araşdırılmışdır. Müəllif nəfəs alətlərinin həm ənənəvi musiqidə, həm də bəstəkar yaradıcılığında ansambl və orkestrlərdə istifadəsinə diqqəti yönəldir. Ənənəvi musiqidə müstəqil olaraq instrumental rəqs havalarının ifaçısı kimi bir sıra alətlər solo şəklində, eləcə də nəfəs və zərb alətlərindən ibarət dəstələr kimi fəaliyyət göstərir. Eyni zamanda, nəfəs alətləri aşıq və muğam ansambllarında həm müşayiətedici alət kimi, həm də solo epizodların ifaçısı kimi çıxış edir. Milli nəfəs alətləri bəstəkar yaradıcılığında – ansambl pyeslərində və orkestr əsərlərində, xalq çalğı alətləri orkestrində, simfonik orkestrdə tətbiq olunur. Məqalədə hər bir sahə ilə bağlı musiqi nümunələri nəzərdən keçirilir.*

***Açar sözlər.*** *Nəfəs alətləri, solist, ansambl, orkestr, rəqs, bəstəkar yaradıcılığı.*

## Giriş

Azərbaycan musiqi ifaçılığında milli nədəs alətlərinin özünəməxsus yeri vardır. Bu alətlər həm şifahi ənənəli musiqi irsində, həm də bəstəkar yaradıcılığında geniş surətdə istifadə olunur. Azərbaycan xalq çalğı alətləri arasında hər bir alətlər qrupu – simli, nəfəs, zərb alətləri quruluş xüsusiyyətləri, səs mənbəyi, çalğı üsullarına görə fərqlənir və onların ənənəvi repertuarı formalaşmışdır.

## Əsas təhlil

Milli nəfəs alətlərinin musiqi ifaçılığında tətbiqi iki istiqamətdə özünü göstərir: 1. Şifahi ənənəli musiqidə solo şəklində və müxtəlif tərkibli ansambllarda; 2. bəstəkar əsərlərinin ifası ilə bağlı müxtəlif tərkibli ansambl və orkestrlərdə. Bu istiqamətlərin hər biri özülüyündə bir neçə yerə ayrılır. Hər bir istiqamət üzrə alətlərin tətbiqində müxtəlif xüsusiyyətlər özünü göstərir.

Birinci istiqamət şifahi ənənəli musiqi ifaçılığı ilə bağlıdır. Şifahi ənənəli musiqidə hər bir alətin xalq məişətində, mərasimlərdə müəyyən yeri vardır. Nəfəs alətləri – tütək, zurna, balaban, ney, tulum həm solo şəklində, həm də nəfəs və zərb alətlərindən ibarət ansambllar şəklində istifadə olunur.

Tütək solo alət kimi insanların məişətində, xüsusilə maldarlıqda istifadə olunaraq, qədim dövrdən xalq arasında qoyun-quzu otaran çobanlar tərəfindən ifa olunur. “Çoban bayatı” melodiyası bunun ən geniş yayılmış və xalq arasında çox sevilən bir nümunəsi kimi qeyd oluna bilər. Nəfəs alətlərindən ney və tulum da ənənəvi olaraq solo şəkildə istifadə olunur. Ney alətində xalq ifaçıları tərəfindən həzin xarakterli melodiyaların birsəsli və ikisəsli ifası özünü göstərir. Lakin qədim dövrlərdən tütək alətindən əmək-məişət şəraitində və ney alətindən isə mərasimlərdə istifadə olunur. Bütün bu cəhətlər ənənəvi olaraq, müasir dövrdə də qorunub saxlanılır.

Tulum aləti isə əsasən Yallı ifaçılığında geniş yayılmışdır. Bəzi bölgələrdə Yallı müşayiətində tulum alətindən də istifadə olunur. Xüsusilə Naxçıvanda Yallı rəqslərinin müşayiətində tulum və nağaradan ibarət ansambl ifası tətbiq olunur.

Digər nəfəsli alətlər – zurna və balaban əsasən ansamblların tərkibində, bəzi hallarda isə solo şəklində istifadə olunur.

Şifahi əsaslarla fəaliyyət göstərən ansambllara xalq arasında geniş yayılmış “zurnaçılar dəstəsi” adlandırılan ansambl növü aiddir. Rəqs ifaçılığında zurna, balaban, nağara alətlərindən istifadə olunur. Xüsusilə yallı rəqsinin müşayiətində zurnaçılar dəstəsi (usta-dəmkeş ansamblı) əvəzolunmazdır. Bununla yanaşı, açıq havada keçirilən idman - atçapma və pəhlivan yarışlarında, xalq mərasimlərində zurnaçılar dəstəsi əsas musiqi müşayiətçisi kimi çıxış edir [2].

Xalq rəqslərinin not yazılarında zurnaçılar dəstəsinin ifasından yazılmış nümunələrə rast gəlirik ki, bunlardan əksəriyyəti birsəsli şəkildə olsa da, bəzi nümunələr ikisəsli şəkildə qeyd olunmuşdur.

1951-ci ildə çap olunmuş Tofiq Quliyev, Zakir Bağırov və Məmmədsaleh İsmayılovun not yazısında "Azərbaycan xalq rəqsləri" məcmuəsində bunu izləyə bilərik. Məsələn, həmin məcmuədən "Diringi" havasında usta-dəmkeş münasibətini aydın görürük (Nümunə 1).

Nümunə 1.




Birinci zurna şur məqamına əsaslanan melodiyanı ifa edir, ikinci zurna isə həmin məqamın mayəsini – "do-diyez" səsini burdon səs olaraq uzadır.

Balaban alətinin tətbiqi isə bir qədər fərqlidir. Belə ki, balaban rəqs ifaçılığında iki balaban və nağaradan ibarət ansambl şəklində çıxış edir. Eyni zamanda, həzin səsli balaban alətində muğam parçalarının solo ifası xüsusilə təsirli səslənir.

Şifahi əsaslarla ifaçılıqla bağlı olan aşıq və muğam ansamblларında da balaban alətindən istifadə olunur. Bu ansamblların repertuarı şifahi ənənəli musiqi nümunələrindən - xalq rəqslərindən, aşıq havalarından, muğama aid janrlardan ibarətdir. Aşıq ansamblında saz aparıcı alət kimi çıxış edir, balaban isə "dəmkeş" kimi ansamblda iştirak edir. Lakin bəzi hallarda bu alətdə rəqsvari parçalar və ya muğam gəzişmələri ifa olunur ki, bu da aşığa həm dincəlmək üçün imkan verir, həm də aşıq havalarının ifaçılığına rəngarənglik gətirir.

Muğam ifaçılığında ansamblın klassik tərkibi tar, kamança və qavaldan ibarət olsa da, müasir dövrdə bu tərkibi genişlərdirib bir sıra simli, nəfəs və zərb alətləri daxil edirlər: ud, qanun, nağara, balaban alətləri tar, kamança və qavalın çalğısına qoşulur. Bu cür ansamblda balaban həm dəmkeş rolunu oynayır, həm də müəyyən muğam parçalarını solo ifa edir.

Bütün bunlarla yanaşı, musiqi ifaçılığında geniş tərkibli xalq çalğı alətləri ansamblları da fəaliyyət göstərir ki, bunların da tərkibinə nəfəs alətləri: əsasən zurna, balaban, bəzən əsərin məzmunundan irəli gələrək, tütək və s. daxil olunur.

Bütün qeyd etdiyimiz ansamblllarda nəfəs alətlərindən müxtəlif şəkildə həm solo alət kimi, həm də ansamblın üzvü kimi istifadə olunur. Məsələn, aşıq və muğam ansamblларında əsasən balaban aləti tətbiq olunur. Aşıq dəstəsində balabançı aşıq sazı ilə yanaşı, müşayiətçi kimi çıxış edir. Bəzən bir, bəzən də iki balabançıdan istifadə olunur. Muğam ifaçılığında isə tar, kamança ilə yanaşı, balaban aləti dəmkeş kimi daxil edilir. Lakin bu alətdə muğam parçaları da olduqca həzin səslənir.

Milli nəfəs alətlərinin tətbiqi ilə bağlı ikinci istiqamət bəstəkar yaradıcılığı ilə əlaqədardır. Not üzrə ifaçılığa əsaslanan ansambl və orkestrlərdən danışarkən, ilk növbədə, bəstəkarlar tərəfindən müxtəlif janrlı əsərlərin ifası üçün yaradılan rəngarəng tərkibli ansamblları qeyd etmək olar. Bu kimi ansamblllarda əsərin məzmunundan asılı olaraq, zurna, balaban, ney, tütək alətləri tətbiq olunur. Məsələn, son dövrdə qəhrəmani xarakterli əsərlərdə zurna alərindən istifadə olunmasına çox rast gəlinir. Bu cəhət bəstəkarların xalq qəhrəmani musiqisinə müraciət edərək, cəngi ruhlu əsərlər yaratmasından irəli gəlir. Məhz "Cəngi" rəqsinin zurnada ifası ənənəsi bəstəkar yaradıcılığına da sirayət etmişdir. Bu baxımdan bəstəkarlar Elnara Dadaşovanın və Məmmədağa Umudovun əsərlərində bunu müşahidə edirik.

Milli nəfəs alətləri Azərbaycan xalq çalğı alətləri orkestrinin daimi tərkibinə daxildir. 1931-ci ildə yaradılmış Azərbaycan xalq çalğı alətləri orkestrinin partiturasında bu alətlərin öz yeri vardır [2].

Xalq çalğı alətləri orkestrinin partiturasına I və II balabanlar, zurna daxildir. Bununla belə əsərin məzmunundan irəli gələrək, zurna, tütək, ney solo alət kimi müəyyən dramaturji məqsədlərlə istifadə olunur. Məsələn, Ü.Hacıbəyli xalq çalğı alətləri orkestri üçün ilk əsərləri – "Şur" və "Çahargah" fantaziyalarını bəstələmişdir. Bu əsərlərdə iki balabandan istifadə olunur. Ü.Hacıbəylinin "Cəngi" əsərində ilk dəfə olaraq, zurna aləti orkestrə daxil edilmişdir (Nümunə 2).

Nümunə 2.




Göründüyü kimi, xalq çalğı alətləri orkestrinin tərkibində əsasən üç və ya dörd balaban alətindən istifadə olunur, səs tembrinə görə isə bir zurna daxil edilir. Bu bir ənənəyə çevrilərək, Zülfüqar Hacıbəyovun, Süleyman Ələsgərovun və digər bəstəkarların yaradıcılığında istifadə olunmuşdur.

Ayrı-ayrı əsərlərdə nəfəs alətlərinin solo ifası partituraya daxil edilir. Məsələn, Ağabacı Rzayevanın "Çoban Qara" əsərinin ifası zamanı tütək aləti orkestrə daxil edilir. Balaban alətindən də solo şəkildə istifadə nümunələri vardır, məsələn, Süleyman Ələsgərovun "Xəyala dalarkən" pyesini nümunə göstərə bilərik.

Bir sıra bəstəkarlar dünya xalqlarının musiqi mədəniyyətinə müraciət edərək yaratdığı əsərlərdə həmin xalqın musiqi mədəniyyətinə xas olan alətlərin səslənməsini təsvir etmək üçün Azərbaycan xalq çalğı alətlərindən istifadə etmişlər. Bunun ən bariz nümunəsi Soltan Hacıbəyovun Azərbaycan xalq çalğı alətləri orkestri üçün yazdığı "Bolqar süitası" ola bilər.

Bolqar folklorunun melodik və ritmik xüsusiyyətlərini saxlayaraq, bəstəkar onun Azərbaycan xalq musiqisi ilə kəsişən cəhətlərini tapmağa və uğurlu şəkildə istifadə etməyə çalışmışdır. Ən vacib məsələ də ondan ibarət idi ki, bəstəkar bolqar xalq musiqisini diqqətlə öyrənərək və mənimsəyərək, onu stilizasiya etməmiş, əksinə, xalqın xarakterini yaratmağa çalışmışdır.

"Bolqar süitası" – bəstəkar tərəfindən musiqi folklorunun yaradıcılıqla mənimsənilməsi nəticəsində əks etdirilən bolqar xalqının parlaq təbiətinin və məişətinin təcəssümüdür. Bu əsərin xalq çalğı alətləri orkestri üçün işlənilməsi də maraqla qarşılanmışdır. Belə ki, bəstəkar partituraya daxil

olunan milli musiqi alətləri ilə bolqar xalq çalğı alətlərinin səslənməsində yaxınlıq görərək, onlardan orkestrləşdirmədə özünəməxsus çalarlarla istifadə etmişdir.

Əsərin orkestr tərtibatında bəstəkar çox yayılmış bolqar xalq musiqi alətlərinin səslərinin imitasiyasını verməyə çalışmışdır. Bunlardan simli alət olan qadulka, barmaqla çalınan musiqi aləti tambur və nəfəs aləti kavalı qeyd edə bilərik. Qadulka və tambur alətlərinin səslənməsini bəstəkar orkestrin simli alətlər qrupuna həvalə etsə də kaval alətinin səslənməsini təcəssüm etdirmək üçün tütək alətindən istifadə etmişdir.

"Bolqar süitası"nda orkestrin tərkibinə klarnet in A, tütək in H, balaman in H, dəf, kamança in D, tar in H, fortepiano daxildir. Əsərdə bizi maraqlandıran asprktdə milli nəfəs alətlərindən tütək və balaman istifadə olunur, bu alətlərin orkestrdə tətbiqi xüsusiyyətləri müxtəlifdir. Partiturada balaman partiyası I, II və III balamanlardan ibarətdir. Balamanlar bütün əsər boyu orkestrin əsas tərkib hissəsi kimi digər alətlərlə yanaşı melodik xəttin səsləndirilməsində və və eləcə də harmoniyanın qüvvətləndirilməsində iştirak edir. Tütək isə yalnız solo alət kimi çıxış edir (nümunə 3).

Nümunə 3.




Onu da qeyd edək ki, S.Hacıbəyovun "Bolqar süitası" Azərbaycan bəstəkarlarının dünya xalqlarının musiqi irsinə müraciət edərək, xalq çalğı alətləri orkestri üçün əsərlər yazmasına bir təkan oldu. Bu baxımdan S.Hacıbəyovun "Çex rəqsi" (1955), C.Cahangirovun "Misir lövhələri" (1962) əsərlərinin adını çəkə bilərik.

Bəstəkarların müvafiq əsərləri ilə bağlı olaraq, milli nəfəs alətləri simfonik orkestrdə, həmçinin, hərbi orkestrdə də tətbiq olunur. Bu baxımdan milli musiqi alətlərinin simfonik orkestrə daxil olunması Ü.Hacıbəylinin adı ilə bağlıdır. Bilavasitə "Koroğlu" operasında müəyyən səhnələrdə, əsasən xalqın sevincini və igidliyini əks etdirən rəqslərdə - "Cəngi" rəqsində nəfəs alətləri simfonik orkestrin tərkibinə daxil edilmişdir.

Cavanşir Quliyevin zurna və simfonik orkestr üçün uvertyurası da bu ənənənin davamıdır. Bu əsərdə zurna alətinin solo alət kimi üçlü simfonik orkestrin tərkibinə daxil edilməsi onun məzmunu ilə bağlıdır. Bəstəkar qədim dövrün cəngavərlik ruhunu canlandırmaq üçün məhz zurna alətini seçmişdir ki, bu da xalqımızın cəsurluğunun, igidliyinin rəmzi kimi qəbul olunur. Zurna aləti əsərin ilk xanələrindən parlaq tezis kimi səslənərək, əsərin dramaturji inkişafına təkan verir (nümunə 4).

Nümunə 4.




Göründüyü kimi, zurna alətinin xalq musiqi ifaçılığında əsasən qəhrəmani ruhlu rəqsləri və musiqi əsərlərində bu qəbildən olan mövzuları ifa etməsi bir ənənəyə çevrilmişdir. Bundan irəli gələrək, hərbi orkestrlərdə də Cəngi tipli əsərlərin ifası zamanı orkestrin tərkibinə zurna aləti daxil olunur. Göründüyü kimi, bunlar çox maraqlı material olub, nəfəs alətlərinin tədqiqat dairəsinin genişliyini üzə çıxarır.

## Nəticə

Beləliklə, milli nəfəs alətlərinin tətbiqi sahələrini izlədikdə onların həm solo, həm ansambl, həm də orkestrlərdəki rolunun özünəməxsus xüsusiyyətlərə malik olduğunu görürük. Şifahi ənənəli musiqidə qədim dövrdən bu günə kimi milli nəfəs alətlərinin tətbiqi xüsusiyyətləri formalaşmışdır və bəstəkar yaradıcılığında da ənənəvi olaraq öz təcəssümünü tapmışdır.

## ƏDƏBİYYAT

1. Abdullayeva, S.A. Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq-orqanoloji tədqiqat) / S.A.Abdullayeva. – Bakı: Adiloğlu. – 2002. – 453 s.
2. Ələsgərov S.Ə., Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri və orkestrləşmə / S.Ə.Ələsgərov, S.A.Abdullayeva. – Bakı: Maarif, – 1996. – 172 s.

***Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dissertantı***
***e-mail: eminnagiyev_71@mail.ru***

**Emin Nagiyev**

**AZERBAIJAN NATIONAL BREATH INSTRUMENT ENSEMBLE AND PLACE AND ROLE IN ORCHESTRAS**

The article is devoted to the application of national wind instruments of Azerbaijan in the practice of musical performance. The article examines the place and role of national wind instruments in ensembles and orchestras of various compositions. The author draws attention to the use of wind instruments in ensembles and orchestras, both in traditional music and in composing. In traditional music, as an independent performer of instrumental dance melodies, a number of instruments act as soloists, as well as in the form of ensembles consisting of wind and percussion instruments. At the same time, wind instruments perform in Ashug and mugham ensembles as accompanying instruments and performers of solo episodes. National wind instruments are used in composer's work in ensemble pieces and orchestral works, in the orchestra of folk instruments, and in the symphony orchestra. The article discusses musical examples related to each area.

**Keywords.** *Wind instruments, soloist, ensemble, orchestra, dance, composing.*

**Эмин Нагиев**

**НАЦИОНАЛЬНЫЙ АНСАМБЛЬ ДЫХАТЕЛЬНЫХ ИНСТРУМЕНТОВ АЗЕРБАЙДЖАНА И МЕСТО И РОЛЬ В ОРКЕСТРАХ**

Статья посвящена вопросам применения национальных духовых инструментов Азербайджана в практике музыкального исполнительства. В статье рассматривается место и роль национальных духовых инструментов в ансамблях и оркестрах различного состава. Автор обращает внимание на использование духовых инструментов в ансамблях и оркестрах, как в традиционной музыке, так и в композиторском творчестве. В традиционной музыке в качестве самостоятельного исполнителя инструментальных танцевальных мелодий ряд инструментов выступают как солисты, а также в виде ансамблей, состоящих из духовых и ударных инструментов. При этом духовые инструменты выступают в ашугских и мугамных ансамблях как аккомпанирующие инструменты, так и исполнители сольных эпизодов. Национальные духовые инструменты применяются в композиторском творчестве в ансамблевых пьесах и в оркестровых произведениях, в оркестре народных инструментов, и в симфоническом оркестре. В статье рассматриваются музыкальные примеры, относящиеся к каждой области.

**Ключевые слова:** *Духовые инструменты, солист, ансамбль, оркестр, танец, композиторское творчество.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 14.02.2024**
**Son daxilolma tarixi:16.03.2024**

*s*